**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

**və**

**İSPANİYA İQTİSADİYYAT VƏ MALİYYƏ KRAL AKADEMİYASI ARASINDA ELMİ ƏMƏKDAŞLIQ HAQQINDA**

# ANLAŞMA MEMORANDUMU

Azərbaycan Milli Elmlər Akademiyası və İspaniya İqtisadiyyat və Maliyyə Kral Akademiyası (bundan sonra "Tərəflər" adlandırılacaq)

Sosial elmləri üzrə əməkdaşlığın inkişaf etdirilməsi arzusu ilə;

Azərbaycan və İspaniya tədqiqatçıları arasında əməkdaşlığın möhkəmləndirilməsi və onların elmi əlaqələrinin gücləndirilməsi məqsədi ilə;

aşağıdakılar barədə razılığa gəldilər:

1. Tərəflər mövcud Razılaşma çərçivəsində əməkdaşlıq fəaliyyəti və seçilmiş qarşılıqlı maraq sahələri üzrə elmi tədqiqat ilə bağlı tərəfdaşlığı aşağıdakı göstərilmiş formalarda həyata keçirə bilər:
   - Müştərək tədqiqat, təlim, məşvərət və təcrübə mübadiləsi üzrə alim və mütəxəssislərin mübadiləsi,
   - Elmi tədqiqatların nəticələrinin, məlumatların və sənədləşmənin mübadiləsi,
   - Qarşılıqlı maraq sahələri üzrə problemləri ilə bağlı elmi seminar və mühazirələrin təşkil edilməsi,
   - Müştərək tədqiqat proqramlarınn işlənib hazırlanması və başladılması və elmi təcrübənin mübadiləsi,

- Tədqiqat fəaliyyəti üzrə müştərək laboratoriyaların və sınaq mərkəzlərinin yaradılması,
- Qarşılıqlı razılaşdırılmış biləcək elmi əməkdaşlığın digər formaları.

2. Hər iki Tərəfin nümayəndələri, lazım gəldiyi təqdirdə, öz mənzil-qərargahlarında növbəli şəkildə görüşlər keçirir.
3. Heç bir Tərəf, bu Memorandum üzrə həyata keçirilən müştərək tədqiqatların nəticələri ilə bağlı məlumatı qarşı Tərəfin yazılı surətdə razılığı olmadan üçüncü tərəfə ötürə bilməz.
4. Tərəflər təsdiqlənmiş müddət üçün və bu Memorandumun tətbiqi üçün lazım olan şərtləri dəqiqləşdirmək yolu ilə Memorandumun Protokollarını imzalamalıdırlar. Protokollar bu Memorandumun ayrılmaz hissəsini təşkil edəcəklər.
5. Bu Memorandum 1 İyun 2014-cü il tarixindən qüvvəyə minir və növbəti 5 il üçün qüvvədədir. Tərəflərdən heç biri bitməsinə 6 ay qalmış, Memorandumun ləğv edilməsi barədə yazılı şəkildə müraciət ünvanlamadığı təqdirdə, bu Memorandum avtomatik olaraq növbəti 5 il müddətinə uzadılır.
6. Bu Memoranduma xitam verilməsi,Tərəflər başqa cür qərar vermədiyi təqdirdə, öncədən razılaşdırılmış heç bir layihə və proqramlara təsir göstərməməlidir.

**Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən**

**Akad. Akif Əlizadə**

**Prezident**

30.05.14

**İspaniya İqtisadiyyat və Maliyyə Kral Akademiyasi tərəfindən**

**Dr. Jaime Gil Aluja**

**Prezident**